AZƏRBAYCAN 23 fevral 2024-cü il

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Prezident seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə Sizə Malayziya xalqı və hökuməti adından səmimi təbriklərimizi çatdırıram.

Sizin yenidən Prezident seçilməyiniz Azərbaycanı sülhə, sabitliyə və firavanlığa doğru aparmaqda nümunəvi rəhbərliyinizin göstəricisidir. Zati-alinizin xalqınızın tərəqqisi naminə davamlı fədakarlığı həqiqətən təqdirəlayiqdir. Əminəm ki, Siz Azərbaycanın dünya birliyinin hörmətli üzvü kimi nüfuzunu daha da yüksəldəcəksiniz.

Ölkələrimiz arasında mövcud dostluq münasibətlərini və xalqlarımızın qarşılıqlı rifahı naminə əməkdaşlığı gücləndirmək üçün Sizinlə yaxından işləməyi səbirsizliklə gözləyirəm.

Uca Allahdan Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycanı yeni iqtisadi tərəqqi və firavanlığa aparmaq üçün fəaliyyətinizdə uğurlar nəsib etməsini diləyirəm.

*Hörmətlə,*

***Ənvər İBRAHİM,***
***Malayziyanın Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri.

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim.

Bu uğurunuz seçicilərin Sizə, fəaliyyətinizə və planlarınıza etimadının təzahürüdür. Liderlik keyfiyyətləriniz, yorulmaz işgüzarlığınız, şəffaf rəhbərlik üslubunuz sayəsində öz Vətəninin gələcəkdə də dinamik inkişafını Sizin adınızla bağlayan xalqın ehtiramını qazanmısınız.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, əmin-amanlıq, Azərbaycan xalqının rifahı naminə iqtisadiyyatın, elmin, mədəniyyətin inkişafında yeni böyük uğurlar diləyirəm.

*Hörmətlə,*

***Vadim VOROBYOV,***
***Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin baş icraçı direktoru***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli Prezident Əliyev.

İcazə verin, Sizi yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə təbrik edim. Almaniyanın Şərqi Biznes Assosiasiyası adından Sizə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Siz keşməkeşli geosiyasi dövrdə Azərbaycana rəhbərlik edirsiniz və bu dövr Rusiya-Ukrayna müharibəsi nəticəsində daha da çətinləşib. Azərbaycan logistika, bərpaolunan enerji sahələrində, eləcə də fosil yanacaqların mühüm təchizatçısı olaraq tərəfdaş kimi önəmli rol oynayır.

İqtisadi əlaqələri genişləndirməklə yanaşı, ölkəniz həm də regional əməkdaşlıqda əhəmiyyətli rola malikdir. İqtisadi baxımdan Almaniya Azərbaycan ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verir. Biz Bakının COP29-a evsahibliyi edəcək şəhər kimi seçilməsi ilə bağlı qərarı alqışlayır və bu münasibətlə Sizi təbrik edirik.

Şərqi Biznes Assosiasiyası Alman-Azərbaycan Xarici Ticarət Palatası ilə əməkdaşlıq edərək bu il fevralın 26-29-da Bakıya səfər edəcək Almaniya şirkətlərinin 50 nəfərdən ibarət nümayəndə heyətinə rəhbərlik edəcək. Biz planlaşdırma məqsədilə Azərbaycanın Berlindəki səfirliyi ilə sıx əlaqə saxlayırıq və cənab Prezident, Sizinlə görüşümüzdən çox məmnun olardıq.

*Hörmətlə,*

***Katarina Klaas MÜLHAUZER,***
***Almaniya Federativ Respublikasının Şərqi Biznes Assosiasiyasının Müşahidə Şurasının sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyi adından ən səmimi təbriklərimi qəbul edin.

Fürsətdən istifadə edərək Ümumdünya Səhiyyə Təşkilatının 2021-2025-ci illər üçün BMT-nin Davamlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsinə uyğun olaraq Azərbaycanın davamlı inkişafına istiqamətlənmiş milli prioritetlərin dəstəklənməsinə sadiqliyini bir daha nəzərinizə çatdırıram.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası ilə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyi arasındakı tərəfdaşlıq və əməkdaşlığın davamlı olacağına inanıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Hande HARMANCI,***
***Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri***